CODE / ACADEMY

www.code.edu.az

# QRAFİK DİZAYN



#GələcəkBurada

# mündəricat

05 Code Academy Tələbəsi Olmaq

06 Qrafik Dizayn Qlobal Dünyada

08 Qrafik Dizayn Code Academy-də

10 Dizayn Tədrisimizin Üstünlükləri

13 Tədris Kimlər Üçündür?

14 Tədris Proqramı

16 Qazanılan Bacarıqlar

20 Məzunlarımız Zirvələrdə

22 Tədris Cədvəli

CODE / ACADEMY



**ÜLVİ ASLANOV**
**Code Academy-nin Təsisçisi**

## Dünyanın sürətlə rəqəmsallaşdığı, süni intellektin və texnoloji innovasiyaların həyatımızın hər sahəsinə nüfuz etdiyi bir dövrdə yaşayırıq. Bu dəyişən dünyada sadəcə texnologiyanın istehlakçısı olmaq kifayət etmir; əsas hədəf texnologiyanı yaradan, yönləndirən və gələcəyi formalaşdıran tərəf olmaqdır.

Biz Code Academy olaraq fəaliyyətə başladığımız ilk gündən etibarən əsas missiyamız ölkəmizdə rəqəmsal savadlılığı artırmaq, gənclərimizə beynəlxalq standartlara cavab verən praktiki biliklər qazandırmaq və onları qlobal əmək bazarının axtarılan kadrlarına çevirmək olmuşdur. Bugünə qədər 10,000-dən çox tələbənin rəqəmsal dünyadakı ilk addımlarına bələdçilik etməyin və məzunlarımızın 82%-nin nüfuzlu şirkətlərdə uğurla fəaliyyət göstərməsinin qürurunu yaşayırıq.

# CODE ACADEMY TƏLƏBƏSİ OLMAQ

Code Academy tələbəsi olmaq yalnız bilik və bacarıq qazanmaq deyil, inkişafınızı sürətləndirən peşəkar mühitin bir hissəsinə çevrilməkdir. Burada sahənin mütəxəssisləri ilə eyni ekosistemdə öyrənir, 10 mindən çox tələbədən ibarət Code Academy ailəsinə qoşulur və yeni dünyanın peşəkarları ilə davamlı əlaqə qurursunuz. "Open Space" isə fərdi çalışma, yeni tanışlıqlar, əməkdaşlıq, şəxsi və peşəkar inkişaf üçün sizə açıq imkanlar yaradır.

**+10.000**
ümumi tələbə sayı

**116** pedaqoji heyət

**12 saat / 7 GÜN**
"Open Space" -dən istifadə



# Qrafik Dizayn Qlobal Dünyada



**Cahan Təhməzli**

Qrafik Dizayn tələbəsinin final layihəsi




**Qrafik dizayn bu gün sadəcə estetik vizual yaratmaq deyil. O, brendlərin necə danışdığını, məhsulların necə yadda qaldığını və insanların hansı mesaja diqqət verdiyini müəyyənləşdirən qlobal kommunikasiya dilidir.**

Reklam kampaniyalarından brend kimliyinə, sosial media məzmunundan qablaşdırma və motion dizayna qədər hər yerdə güclü vizual düşüncəyə ehtiyac var. Qrafik dizayner ideyanı görünən, anlaşılan və təsir yaradan həllə çevirir.

Sahə qlobal miqyasda sürətlə yenilənir. Uzaqdan əməkdaşlıq, frilans layihələr və beynəlxalq portfolio platformaları dizaynerlərə öz bacarıqlarını coğrafi sərhədlərdən kənarda təqdim etmək imkanı verir. Bu gün Azərbaycanda hazırlanmış güclü portfolio sizi dünyanın istənilən nöqtəsində müştərilər, komandalar və yeni karyera fürsətləri ilə bir araya gətirə bilər.







**65** mlrd $
Qlobal qrafik dizayn bazarı

**75%**
Dizayner artıq AI alətlərindən istifadə edir

**18%**
Dizayner frilans işləyir






# Qrafik Dizayn Burada

#DizaynBurada

Code Academy-də qrafik dizayna yalnız proqramlardan istifadə bacarığı kimi yanaşmırıq. Bizim üçün dizayn ideyanı araşdırmaq, ona estetik istiqamət vermək və onu insanlarda təsir yaradan vizual həllə çevirməkdir.

| 240 | 12/24 | 10+ |
|---|---|---|
| Tədris saatı | Həftə | Portfolio layihəsi |
| **Praktika, yaradıcılıq və peşəkar inkişaf** | **Həftə içi və həftəsonu intensiv tədris formatı** | **İş bazarına hazır şəxsi portfolio** |

tədris modelimiz qlobal kreativ sənayenin ritmi, bazarın yenilənən ehtiyacları və AI-ın açdığı yeni imkanlar əsasında daim yenilənir. Məqsədimiz sadəcə alətlərə bələd olan deyil, günün vizual dilini anlayan, zövqü formalaşmış, yaradıcı baxışı və öz mövqeyi olan dizaynerlər yetişdirməkdir.

Tədrisin mərkəzində praktika dayanır. Tələbə hər mövzuda araşdırır, ideya qurur, moodboard hazırlayır, kompozisiya və tipoqrafika ilə işləyir, fərqli dizayn üslublarını sınaqdan keçirir və onları real layihələrə tətbiq edir. Beləliklə, tələbə dizaynı düşünür, əsaslandırır və istiqamətləndirir.

Burada bədii vizual estetika və dizayn üslubları texniki biliklə birgə inkişaf edir. Süni intellekt isə dizaynerin yerinə qərar verən vasitə deyil; araşdırmanı, vizuallaşdırmanı və iş axınını sürətləndirən yaradıcı köməkçidir. Suni intellektin dəstəyi ilə qazandığımız zamanı daha dərin düşüncəyə, daha cəsarətli ideyalara və daha güclü vizual nəticələrə yönəldirik.

**Qeyd**

**Əmək haqları tam ştat və uzaqdan iş imkanları nəzərə alınaraq hesablanıb.**

**Art Direktor**
Qross əmək haqqı
**78.500 azn**

**Senior Qrafik Dizayner**
Qross əmək haqqı
**34.200 azn**

**Junior Qrafik Dizayner**
Qross əmək haqqı
**15.600 azn**

# Karyeraya addımlarınızı gücləndirən real üstün-lüklər

Code Academy-də tədris yalnız dərs saatları ilə məhdudlaşmır. Məqsədimiz sizi öyrənmə prosesindən etibarən güclü portfolio-ya, real təcrübəyə və peşəkar karyeraya daha hazırlıqlı aparmaqdır.

### Karyera Mərkəzi dəstəyi

Bütün tələbələrimiz Code Academy Karyera Mərkəzinin dəstəyindən yararlanır. İş bazarına hazırlıq, karyera istiqaməti və özünü peşəkar təqdim etmə prosesində yanınızdayıq.

### Agentliklərdə təcrübə imkanı

Tədris müddətində yüksək nəticə göstərən tələbələr təcrübə proqramlarına yönləndirilir. Tərəfdaş agentliklərdə real iş mühiti ilə tanış olmaq, portfolionu gücləndirmək və peşəkar komandalardan öyrənmək fürsəti əldə edirlər.

### Müəllim, mentor və Lab dəstəyi

Open Hour görüşlərində müəllim dəstəyi ilə suallarınıza cavab tapır, layihələriniz üzərində işləyirsiniz.

Mentor əsaslı Lab günlərində isə portfolionuzu təkmilləşdirir, dizayn qərarlarınızı daha güclü vizual həllərə çevirirsiniz.

### Sahənin mütəxəssisləri ilə görüşlər

Yerli dizayn və yaradıcı sahə mütəxəssisləri ilə təşkil olunan görüşlərdə real iş təcrübəsini, fərqli istiqamətləri və sənayenin aktual yanaşmalarını birbaşa peşəkarlardan öyrənirsiniz.

### Növbəti addımınız üçün xüsusi endirim

Qrafik dizayn tədrisini uğurla tamamladıqdan sonra Code Academy-ın digər proqramlarında biliklərinizi genişləndirmək və yeni ixtisaslara yiyələnmək üçün xüsusi endirim imkanından yararlana bilərsiniz.

### 1 il pulsuz Figma abunəliyi

Tədris müddəti və məzuniyyətdən sonrakı 6 ay daxil olmaqla, ümumilikdə 1 il pulsuz Figma abunəliyi əldə edirsiniz. Beləliklə, tədrisdən sonra da portfolio-nuzu və şəxsi layihələrinizi inkişaf etdirməyə davam edə bilirsiniz.

### Adobe proqramları üçün tələbə endirimi

Code Academy tələbə kartı və tələbə e-maili ilə Adobe Creative Cloud proqramlarına tələbələr üçün nəzərdə tutulmuş xüsusi endirimlə abunə ola bilərsiniz.

### Eksklüziv dizayn resursları

Seçilmiş şriftlər, PDF kitablar, faydalı veb-saytlar, vizual təqdimat platformaları, işçi faylları və ilham mənbələrindən ibarət resurs bazasına çıxış əldə edirsiniz. Bu resurslar həm dərsdə, həm də şəxsi layihələrinizdə inkişafınızı davam etdirməyə kömək edir.



**çinarə şükürova**

Qrafik Dizayn tələbəsinin
Çap nəşri dizaynı













# Tədris kimlər üçündür?

## Dizayna ilk addımı atanlar üçün

Vizual dünyaya marağınız var, amma ideyalarınızı necə formaya salacağınızı bilmirsiniz? Tədris sizə dizaynın məntiqini, estetik baxışı və düzgün vizual qərar verməyi addım-addım öyrədir. Əvvəlki təcrübə üstünlükdür, amma başlanğıc üçün şərt deyil.

## Biliklərini gücləndirmək istəyənlər üçün

Artıq dizaynla tanışsınız, lakin işlərinizdə vahid üslub, peşəkar baxış və ya dərinlik çatışmır? Bu proqram mövcud biliklərinizi sistemləşdirərək vizual zövqünüzü, kompozisiya anlayışınızı və yaradıcı düşüncənizi inkişaf etdirməyə kömək edir.

## Yeni karyera qurmaq istəyənlər üçün

Fərqli sahədən gələn təcrübəniz qrafik dizaynda sizin fərqli baxış bucağınıza çevrilə bilər. Tədris sizi sıfırdan yeni karyeranın təməlinə aparır: real iş prosesini, portfolio yaratmağı və iş bazarının gözləntilərini anlayan dizayner kimi formalaşdırır. Yaradıcılığınızı gəlir mənbəyinə çevirmək üçün güclü başlanğıc yaradır.

## Frilans və qlobal imkanları hədəfləyənlər üçün

Müstəqil işləmək, uzaqdan layihələrə qoşulmaq və öz işlərini beynəlxalq auditoriyaya təqdim etmək istəyənlər üçündür. Proqram boyunca formalaşan portfolio, layihəni izah etmə və vizual təqdimat bacarıqları sizi yerli sərhədlərlə məhdudlaşmayan dizayn karyerasına hazırlayır.

# Tədris proqramı

## / 01 MODUL
### Dizaynın əsasları: vektor, forma və rəng
Bu modul qrafik dizaynın və vizual kommunikasiyanın əsaslarını, Adobe Illustrator-da vektor və raster qrafika ilə işi, forma, rəng, qradient və AI alətlərinin tətbiqini əhatə edir.

## / 02 MODUL
### Tipoqrafika və vizual iyerarxiya
Mətn, şəkil və boşluq münasibətlərini düzgün quraraq tipoqrafikanın, şəbəkə sistemlərinin və fərqli dizayn üslublarının köməyi ilə oxunaqlı, balanslı və diqqətçəkən kompozisiyalar yaradacaqsınız.

## / 03 MODUL
### AI ilə yaradıcı düşüncə və iş axını
Bu modul süni intellektin dizayn prosesinə inteqrasiyasını, prompt quruluşunu, AI ilə vizual və video istehsalıyönəlmiş yeni iş axınlarını təqdim edir.

## / 04 MODUL
### Foto və AI əsaslı manipulyasiya
Modul Photoshop və Adobe Firefly mühitində foto retuşu, AI əsaslı bərpa üsullarını, işıq-kölgə quruluşunu və məhsul manipulyasiyasını estetik və inandırıcı vizualların hazırlanması çərçivəsində birləşdirir.

## / 05 MODUL
### Kompozisiya və üslublar
Bu modul qabaqcıl kompozisiya prinsiplərini tipoqrafik, illüstrativ, 3D və reklam yönümlü üslublarla bir araya gətirərək müxtəlif platformalar üçün yaradıcı dizayn həllərini əhatə edir.

## / 06 MODUL
### Rəqəmsal dizayn sistemi: Sosial media dizaynı
Figma əsaslı bu modul sosial media üçün vizual sistemlərin, post seriyalarının, karusellərin və təqdimatların platforma qaydaları, grid və brandkit yanaşması əsasında hazırlanmasına həsr olunur.

## / 07 MODUL
### Nəşr və editorial dizayn
Modul grid sistemləri, səhifə quruluşu, vizual ritm və məzmun ardıcıllığı vasitəsilə kataloq, jurnal və digər çoxsəhifəli nəşrlərin funksional və estetik şəkildə dizayn edilməsini əhatə edir.

## / 08 MODUL
### Vizual brend kimliyi: Brendinq
Bu modul brend araşdırmasından loqotip və simvolun yaradılmasına, vizual kimlik sisteminin, brend təqdimat və brend kitabçanın hazırlanmasına qədər bütöv brendinq prosesini təqdim edir.

## / 09 MODUL
### Qablaşdırma dizaynı
Bu modulda etiket, qablaşdırma, satış stendi və POS materialları izayn etməyi öyrənirsiniz. Məqsəd məhsulun dəyərini və hekayəsini satış məkanında aydın, diqqətçəkən və fərqləndirici şəkildə təqdim etməkdir.

## / 10 MODUL
### 2D Motion Dizayn
Bu modul Adobe After Effects-də laylar, maskalar, hərəkət qrafikləri, effektlər, AI əsaslı video istehsalı, mətn və loqo animasiyasını əhatə edən dinamik motion dizayn prosesini təqdim edir.

## / 11 MODUL
### Peşəkar portfolio idarəetməsi və frilans fəaliyyət
Modul portfolioda iş seçimi, layihələrin təqdimat ardıcıllığı, Behance səhifəsi vasitəsilə peşəkar fəaliyyət üçün aydın və güclü portfolio strukturunun qurulmasına yönəlir.

# Qazanılan Bacarıqlar

## Vizual və bədii düşüncə vərdişi

İdeyanı estetik, məqsədli və yadda qalan vizual dilə çevirə biləcəksiniz. Brifdən başlayaraq layihənin konseptini, vizual istiqamətini və yaradıcı xəttini qura biləcəksiniz.

## Tipoqrafika, kompozisiya və dizayn üslubları ilə işləmək

Mətn, rəng, forma və təsvirləri düzgün vizual iyerarxiyada birləşdirəcək; İsveçrə tipoqrafikasından və müasir eksperimental üslublara qədər fərqli dizayn dillərindən istifadə edəcəksiniz.

## Kommersiya dizaynı və vizual istehsal

Foto manipulyasiya, editorial dizayn, məhsul kataloqu, qablaşdırma və etiket işləri hazırlayacaqsınız. Dizaynı həm estetik, həm də real istehsal və kommunikasiya tələblərinə uyğun qurmağı öyrənəcəksiniz.

## Motion dizayn və dinamik vizuallar

Statik vizualları hərəkətə çevirəcək, mətn, loqo və brend elementləri üçün dinamik motion həlləri yaradacaqsınız. Reklam, sosial media və rəqəmsal platformalar üçün diqqətçəkən vizual məzmun hazırlaya biləcəksiniz.

## AI ilə peşəkar yaradıcı iş axınını qurmaq

AI sadəcə istifadə edən deyil, onu qrafik dizayn mütəxəssisi kimi idarə edən dizayner olacaqsınız. Araşdırma, moodboard, vizual konsept, manipulyasiya və təqdimat proseslərində AI-dazn yaradıcı fərq yaratmaq üçün istifadə edəcəksiniz.

## Brend kimliyi və loqo dizaynı

Brendin fəlsəfəsini araşdıracaq, onu loqo, rəng, tipoqrafika və vahid vizual sistemə çevirəcəksiniz. Brend kitabçası hazırlamaq və brendin ardıcıl vizual dilini qurmaq bacarığı qazanacaqsınız.

## Sosial media və Marketinq Artist yanaşması

Sosial media üçün sadəcə post deyil, brendin məqsədinə xidmət edən vizual kontent sistemi yaradacaqsınız. Kampaniya ideyası, post seriyası, karusel, reklam vizualı və platformaya uyğun kommunikasiya hazırlamaq bacarığı əldə edəcəksiniz.

## Portfolio, təqdimat və frilans savadlılığı

Ən güclü işlərinizi seçib peşəkar portfolioya çevirəcək, case study hazırlayacaq və layihələrinizi Behance, Dribbble və digər platformalarda düzgün təqdim edəcəksiniz. Tədrisin sonunda işlərə müraciət etmək, müştəriyə öz ideyanızı anlatmaq və qlobal frilans imkanlarını dəyərləndirmək üçün hazır olacaqsınız.

BlueBird
COFFEES











# Türkan Əliyeva

Qrafik Dizayn tələbəsinin Brendinq dizaynı











# Məzunlarımız zirvələrdə



## Sabina İbrahimova

**Sea Breeze "Dream Group International"**
**Qrafik Dizayner**

Code Academy mənə qrafik dizayn sahəsində hədəflərimə inamla irəliləməyə kömək etdi. Qazandığım bilik və praktiki təcrübə inkişafımda böyük rol oynadığını deyə bilərəm. İnanıram ki, insan məsuliyyətli və intizamlı yanaşarsa, istədiyi nəticələri əldə edə bilər. Bu təcrübə mənim üçün dəyərli bir başlanğıc oldu.



## Murad Zeynalov

**Vibe&Wave Reklam agentliyi**
**Qrafik Dizayner**

Code Azcademy-də Qrafik dizayn təhsilimi, "Yüksək Şərəf Məzunu" dərəcəsi ilə müvəffəqiyyətlə bitirmişəm. Təhsilimi bitirdikdən sadəcə 1 ay sonra işə başlamışam. Dizayn mənim üçün bir iş deyil. Bu bir həyat tərzidir. Code Academy bir muzeydir, biz yaradıcı insanlar da bu muzeydə olan şahəsərlər. Layiq olduğumuz yer və doğru sənətkarlar olan zaman, heç bir sənət əsəri öz dəyərini itirməz.



## Nərmin Əlizadə

**Olivia Beauty&Care**
**Middle Qrafik Dizayner**

Hər uğur hekayəsinin bir başlanğıcı olur. Mənim hekayəmin başlanğıcı isə Code Academy idi. Bu gün sevdiyim işi görür, hər yeni layihəyə eyni sevgi və həyəcanla yanaşıramsa, bunun təməli məhz orada qoyulub. Hər dəfə yeni bir uğur qazandıqca, həmin ilk addımı minnətdarlıqla xatırlayıram.



## Şamxal Bayramov

**Trenders Reklam agentliyi**
**Qrafik Dizayner**

Sevdiyin işi öyrənmək həmişə maraqlı və həyəcanverici olsa da, onu daha maraqlı edən bu yolda sənə yoldaş olan şəxslər və içində olduğun mühitdir. Bu məkan məhz Code Academy-dir.



## Ləman Həsənli

**Qaraj Studio**
**Qrafik Dizayner**

Code Academy yaradıcılığı inkişaf etdirən və fərqli düşüncələrə açıq bir mühitdir. Burada yeni ideyalar yaratmaq və onları sərbəst ifadə etmək üçün sərhəd yoxdur. Hər addım insanı özünü daha da inkişaf etdirməyə və fərqli düşünməyə sövq edir.

# tədris proqramı cədvəli

| Həftəiçi: Bazar ertəsi - Cümə (5 gün) | |
|---|---|
| **Səhər:** 09:00 - 12:45 | 12 həftə |
| **Günorta:** 14:00 - 17:45 | 12 həftə |
| **Axşam:** 19:00 - 21:45 | 16 həftə |

| Həftəsonu: Şənbə, Bazar (2 gün) | |
|---|---|
| **Səhər:** 10:00 - 14:45 | 24 həftə |
| **Günorta:** 15:30 - 20:15 | 24 həftə |

* Tədris proqramı 240 saat davam edir.

Nizami küç. 203B, AF Business House, 2-ci mərtəbə
+99412 310 0113 / +99450 444 2633
info@code.edu.az / www.code.edu.az